# Tolerantlığın növləri

**Ruqiyyə Akif qızı Tağıyeva**
*Gəncə Dövlət Universitetinin müəllimi,*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** *abayramova@ranbler.ru*

**Rəyçilər:** p.ü.e.d., prof. Ş.T. Tağıyev,
p.ü.f.d. T.Ə. Nəbiyeva

**Açar sözlər:** millətlərarası tolerantlıq, tolerantlıq obyektinin xüsusiyyətləri, kommunikativ tolerantlıq, milli dözümsüzlük, ziddiyyətli dözümsüzlük, davranış vasitəsilə ünsiyyət, vizual ünsiyyət

**Ключевые слова:** межнациональная толерантность, особенности объекта толерантности, коммуникативная толерантность, национальная нетерпимость, противоречивая нетерпимость, поведенческое отношение, визуальное отношение

**Key words:** interethnic tolerance, characteristics of the object of tolerance, communicative tolerance, national intolerance, contradictory intolerance, communication through behavior, visual communication

Tolerantlığın növlərinin təsnifatı məsələsi pedaqoji nəzəriyyədə də aktualdır. Bu problemə A.N. Abbasov, H.Ə. Əlizadə, R.İ. Əliyev, P.B. Əliyev, İ.B. Əmirəliyeva, R.İ. Aslanova, V.V. Boyko, A.Y. Zimbuli, P.F. Komoqorov, V.S. Kukuşin, O.B. Skryabina, L.I. Umanski və b. tərəfindən xüsusi tədqiqatlar həsr edilmişdir.

V.S. Kukuşin tolerantlıq obyektinin xüsusiyyətlərinə görə millətlərarası, irqlərarası, dini və mədəni tolerantlığı qeyd etmişdir (7).

V.V. Boykonun, A.N. Lutoşkinin, O.B. Skryabinanın, L.I. Umanskinin tədqiqatları isə tolerantlığın xüsusi bir növünə - kommunikativ tolerantlığa (ünsiyyət tolerantlığına) həsr edilmişdir. Beləliklə, V.V. Boyko "kommunikativ tolerantlıq" terminini elmə daxil etmiş və bununla da o, kommunikativ tolerantlığı pozitiv kommunikativ quruluşun davranışdakı əksi kimi qəbul etmişdir (3, s. 405).

P.F. Komoqorov aşağıdakı tolerantlıq növlərini müəyyənləşdirmişdir: qrup, siyasi, etnik, fərdi-şəxsi (6, s.84-85). O, cinsi, yaş, mülkiyyət, peşə, siyasi və dini tolerantlığı da qəbul etdi (6, s.86). Bundan əlavə, tələbə şəxsiyyətini tolerant inkişaf səviyyəsinə çatmaq üçün müəllimin pedaqoji fəaliyyəti prosesində tolerant münasibətlər bacarıqlarını əhatə edən "pedaqoji tolerantlıq" anlayışını təqdim etdi (6, s.86-87). Bu cür tolerantlıq müəllimin peşəkar şəxsi keyfiyyəti və onun davranış normalarından biri olmaqla yanaşı pedaqoji etikanın vacib komponentidir.

A.E. Zimbuli, motivasiya əsasında tolerantlığın dörd növünü qeyd edir: kvazi dözümlülük – zahirən tolerantlıq kimi görünən, lakin xəyali, qeyri-real olan təmkin növləri (bu cür davranışın motivləri praqmatizm, özünü reklam, özündən razılıq); yalançı dözümlülük – kimisə süurlu şəkildə aldatma halları (motivasiya - sunilik); reklam xarakteri daşıyan "mənfi" dözümlülük, habelə zərərli müdaxilə etməmək (motivasiya – təxirə salınmış intiqam, qərəzli qarışmamaq); "pozitiv" və ya həqiqi dözümlülük diqqət, anlayış, rəğbət, yardım, ünvan sahibinə qayğı kimi motivlərlə şərtlənir (5, s. 22-28).

Biz belə hesab edirik ki, tolerantlığın subyekt-obyekt meyarına əsasən üç əsas tolerantlıq

növünü ayırd edə bilərik: digər milli qrupların (etnik qrupların) nümayəndələrinə qarşı dözümlülükdən ibarət millətlərarası (etnikarası) tolerantlıq; başqa bir inanca, dinə dözümlü münasibət göstərən dini tolerantlıq; başqa bir insana, onun baxışlarına və fərdi xüsusiyyətlərinə ehtiramla yanaşan şəxsiyyətlərarası tolerantlıq. Həmcinin, insanın özünə qarşı tolerantlığı da qəbul etmək olar.

Fərqliliyin qəbul edilməsi, fikrimizcə, tolerantlığın əsasını təşkil edir, xüsusən də, azlıqların hüquqları barədə danışarkən. Əlbəttə, bu, dini azlıqlar da daxil olmaqla azlıqların qanun çərçivəsindən kənarda qala biləcəyi anlamına gətirmir. Bu problem, böyük maliyyə mənbələri olan xarici dini və din ətrafı birliklər tərəfindən vətəndaşlarımızın mənəvi həyatına saymazyana müdaxiləsi ilə əlaqədar olaraq xüsusilə aktuallaşmışdır. Onlara münasibətimiz birmənalı deyil - qadağa tələblərindən tutmuş fəaliyyətlərindəki məhdudiyyətlərin aradan qaldırılmasına qədər. Görünür dini status tələb edən təşkilatın hər birinə münasibət, o cümlədən yerli mənşəli olan, yalnız qanuni meyarlarla müəyyənləşdirilməlidir: bu təşkilat dindardırmı, fəaliyyətində fərdin əsas hüquqlarına dair hər hansı bir pozuntu varmı, davamçılarına vətəndaşlıq borclarını yerinə yetirməyə müdaxilə edirmi və s.

İctimai şüurda və psixologiyada özünə möhkəm yer tutmuş ənənələr, ictimai sistemlər, siyasi hakimiyyət və rəsmi ideologiyalar dəyişdikdə belə, bir çöx hallarda qüvvədə qalır. Buna M.P. Mçedlovun tədqiqatında ziddiyyətli dözümsüzlük ənənələrinin xeyli dərəcədə təzahür etdiyi Rusiyada müşahidə etmək mümkündür (8, s. 54). Deyilənlər həm dünyəvi sivil tarixə, həm də mənəvi dini seçimə aiddir. Beləliklə, bunu hər bir insanın ideoloji seçim hüququna müdaxilə açıq şəkildə təsdiq edir, məsələn, patriarx Nikonun kilsə islahatını qəbul etməyi rədd edən köhnə möminlərin tərəfdarlarını iki əsirdən artıqdır ki, təqib edir.

Bu gün dini tolerantlığın təmin edilməsi həm neqativ tarixi ənənələr, həm də əhalinin çox konfessiyalı və polietik tərkibi, bəzi dinlərarası ziddiyyətlərin olması, bir sıra Avropa dövlət rəhbərlərinin (Fransa prezidenti İ. Makronun və s.) və dini liderlərin iddialı siyasəti, mükəmməl olmayan qanunvericilik, rəsmi şəxslərin, xüsusən də icra hakimiyyətində siyasi mədəniyyətin aşağı səviyyədə olması, ictimai rəyə müəyyən laqeydlik ilə mürəkkəbləşir. Aydındır ki, bütün vətəndaşlar arasında xeyirxah mədəni münasibətlərin qurulması, hansı ideoloji ideallara sadiq qalmalarından asılı olmayaraq vicdan azadlığı prinsipinə tam əməl olunmasına kömək edəcəkdir.

Dövlət, hökumət və hakimiyyət orqanları dünyagörüşü baxımından bitərəf olmalı, ölkədə tolerantlıq və xeyirxah bir əməkdaşlıq mühiti yaratmağa çalışmalıdırlar. Azlıqların etnik, mədəni və dini kimliyi qorunmalı və hər hansı dini motivlərə görə zülmə imkan verilməməlidir. Vicdan azadlığı prinsipi fərdi və ictimai münasibətlərin əsası və norması olduğu üçün, o, son dərəcə vacib olan dövlət hüquqi sənədlərində, konstitusiya müddəalarında, qanunvericilik aktlarında öz əksini tapmalı və hüquqi zəmanətə malik olmalıdır.

Bir az fərqli mövqedə İ.A. Qalitskaya durur. O, hesab edir ki, çoxmillətli Rusiyanın keçmişdə Avropanı sarsıtmış dini müharibələrin bəlasından xilas olması və əsrlər boyu birgəyaşayış müddətində tarixən formalaşmış ənənələrini qoruyub saxlaması səbəbindən, ərazilərində dini dözümlülük prinsiplərinə əsaslanan tolerant münasibətlər qurulmuşdur. Mövcud dini birliklər ənənəvi olaraq başqa dominant dinlə ərazilərə daxil olmamışlar. Sovet ateist dövlətində onların münasibətləri xeyirxah bir xarakter daşıyırdı (4, s.55-56). Bundan xeyli əvvəl, 1910-cu ildə nəşr olunan "Rusiyada milli tərbiyə və təhsil" kitabının müəllifi P.İ. Kovalevski də eyni fikirdə olmuşdur (10, s. 56).

Azərbaycanda yaşayan xalqlar arasında formalaşmış dini inanclara qarşı dözümlü münasibət, Azərbaycan cəmiyyətinin bütövlüyü üçün şərait yaratdı. Bu gün də onlar, Azərbaycan

dövlətinin güclü siyasəti və qayğısı sayəsində, etnosların yeni nəsillərində qorunub saxlanılır və təkrarlanır.

Etnikarası (millətlərarası) tolerantlığın problemləri ilə bağlı dünya etnoloqları və etnopsixoloqları arasında qızğın müzakirələr gedir. Ən çox yayılmış anlamlardan biri tolerantlığın etnik fərqlərə laqeydlik münasibəti hesab olunur. Ona, tez-tez yüksək işgüzar və ümumi mədəni yönümlü insanlar arasında, təbiətşünas-alimlər, riyaziyyatçılar, iqtisadçılar arasında rast gəlinir.

Nəzərə almaq lazımdır ki, bir qrup insanlar tolerantlıq problemlərinin quruluşunu çox vaxt "səbri", "dözümü" stimullaşdırmaq üçün bir vasitə kimi, xalqlararası ünsiyyətdə laqeydliyi isə - xalqların ehtiyaclarını unutmaq istəyi və ya hətta assimilyasiya meylləri kimi qəbul edirlər. Bu səbəbdən tolerantlığın anlamı yalnız elmi deyil, həm də praktik, ideoloji və siyasi əhəmiyyətə malikdir.

İ.B. Həsənov "Millətlərarası ünsiyyət mədəniyyəti tərbiyəsi: metodologiya, nəzəriyyə və praktika" adlı monoqrafiyasında (10) milli dözümsüzlük problemini araşdırarkən tolerantlığı aqressivliyin antipodu adlandırır. O, neofreydizmin nümayəndələrinin (A. Ballon, N. Braun, Q. Markuze, A. Mitterlix, V. Rayxa, E. From, K. Horni) əsərlərinə istinad edərək insanlarda müşahidə olunan belə şəxsi təzahürlərin sosial mahiyyətini əsaslandırır və aqressivliyin düşmənçiliyin əsası, tolerantlığın isə dinclik, sülhsevərlik, qeyri-zorakılıq olması qənaətinə gəlir (10, s. 196-197).

Qeyd etmək lazımdır ki, müasir elmi ədəbiyyatda millətlərarası və etniklərarası tolerantlıq arasında dəqiq bir sərhəd yoxdur: hər iki anlayışdan çox vaxt sinonim kimi istifadə olunur. Lakin belə hesab edirik ki, "etnos" və "millət" anlayışlarını onların əhatə dairəsinə görə fərqləndirmək mümkündür. Fikrimizcə, etnikarası tolerantlıq - digər etnik qrupların nümayəndələrinə qarşı dözümlülük, və millətlərarası tolerantlıq isə başqa bir millətə qarşı olan dözümlülükdür. Bu başqa millət isə bir xalq olaraq müstəqil hökumətə, digər millətlər tərəfindən tanınan və az-çox hörmət edilən sərhədlərə, əraziyə malik olmalıdır.

R.İ. Aslanovanın nöqteyi-nəzərincə etnikarası tolerantlıq, özünü məhdudlaşdırma və düşünülmüş qarışmamaq, qarşılıqlı dözümlülüyü qəbul etmək kimi deyil, əksinə başqalarını olduğu kimi qəbul etmək və onlarla qarşılıqlı əlaqə qurmaq istəyi kimi olmalıdır (2, s. 52-53). Etnikarası tolerantlıq özünü şəxsin hərəkətlərində biruzə verir, ancaq təbii ki, etnik bərabərliklə sıx əlaqəli şəkildə şüur sferasında formalaşır.

Millətlərarası tolerantlıq, A.N. Abbasova görə, fərqli millətlərin nümayəndələri arasındakı münasibətlərdə özünü göstərir və millətlərarası münasibətlərin perspektivlərini görmək və bu perspektivləri nəzərə alaraq millətlərarası münasibətlər qurmağı nəzərdə tutur. Millətlərarası tolerantlıq - "mentaliteti, özünü ifadə etmə xüsusiyyətini nəzərə almaqla, digər milli (etnik) qrupların nümayəndələrinə qarşı dözümlülük xarakteridir" (1, s. 53).

Millətlərarası tolerantlığı İ.Z. Skovorodkina "əsasında psixoloji, ilk növbədə, insan kommunukasiyasının emosional-şəxsi, idraki, humanist mexanizmləri, onun tarixi-mədəni inkişaf səviyyəsi, mentaliteti duran insan münasibətlərinin təzahür növlərindən biri, münasibətlər sistemi, müxtəlif etnoslara aid insanlar arasındakı əlaqələr, münasibətlər kimi" qəbul edir (11, s. 93). O, millətlərarası tolerantlığın üç qrupa qruplaşdırıla bilən aşağıdakı təzahür əlamətlərini müəyyənləşdirir: vizual ünsiyyətlər (nikbin əhval-ruhiyyə, psixoloji rahatlıq, müsbət emosiyaların təzahürü - mimik reaksiyalar, ünsiyyət yaradan jestlərin istifadəsi); nitq vasitəsilə ünsiyyətlər (ünsiyyət dilinin seçim azadlığı, ədəbi dilin istifadəsi, jarqonun rədd edilməsi); davranış vasitəsilə ünsiyyətlər (bərabər ünsiyyət, hər hansı bir sosial vəziyyətdə - formal, qeyri-formal etikanın qorunması, hər hansı zəif bir insanın müdafiə edilməsi və müdafiə edici reak-

siyaları, ədalət hissinin kəskinləşməsi, çətin sosial vəziyyətdə köməyin göstərilməsi (sosial və şəxsi həssaslıq), öz fəaliyyətində - məsləhət, tərif, inandırma, şəxsə fiziki və mənəvi təzyiqin inkar edilməsi metodlarından istifadə) (11, s. 93).

Beləliklə, strukturunda dözüm, səbir, itaət, təvazökarlıq və dözümlülük olan şəxsiyyətin mürəkkəb xüsusiyyəti kimi tolerantlıq (dözümlülük) insanın təkcə ətraf aləminə deyil, özünə qarşı da tolerant münasibətlər sistemidir, Onun öz subyekti, ünvanı, predmeti, xüsusi meyarları, göstəriciləri, eləcə də müxtəlif forma və növləri var.

Tədqiqatımızın gedişində, digər insanların maraqlarına, etiqadlarına, inanclarına, vərdişlərinə, milli və etnik xüsusiyyətlərinə, davranışlarına qarşı dözümlü, loyal bir münasibət var.

**Məqalənin aktuallığı.** Tədqiqat işinin mövzusu bir tərəfdən həm beynəlmiləl və həm də millilik baxımından aktualdır, müasir və konkretdir, digər tərəfdən - elmi tolerantlıq nəzəriyyəsinin inkişafı, təhsil prosesinin mövcud praktik vəzifəsidir.

**Məqalənin elmi yeniliyi.** Kiçikyaşlı şagirdlərin tolerantlıq tərbiyəsinə orijinal nəzəri və metodiki yanaşma texnologiyası hazırlanmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın materiallarından kiçikyaşlı məktəblilərin tolerantlıq tərbiyəsi ilə bağlı ibtidai sinif müəllimlərinin hazırlanmasında bəhrələnmək olar.

## Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası / A.N. Abbasov. – Bakı, Mütərcim, -2016. - 165 s.

2. Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik / R. Aslanova. -Bakı, -2004. -264 s.

3. Бойко, В.В. Энергия эмоций в общении: Взгляд на себя и других / В.В. Бойко. – М.: Филин, -1996. – 472 с.

4. Воспитание в духе патриотизма, дружбы народов, веротерпимости // -Москва: Педагогика. – 2000. – № 5. – с. 41-58.

5. Зимбули, А.Е. Почему терпимость и какая терпимость? // -Москва: Вестник СПб. Ун-та. Сер. 6. – 1996. - № 2. – с. 22-28.

6. Комогоров, П.Ф. Формирование толерантности в межличностных отношениях студентов высшего учебного заведения: / Дис. кандидата педагогических наук / – Курган, 2000. – 191 с.

7. Кукушин, В.С. Воспитание толерантной личности в поликультурном социуме: Пособие для учителя / В.С. Кукушин. – Ростов на Дону: Гинго, -2002. – 405 с.

8. Мчедлов, М.П. Терпимость – свойство культуры, путь к гражданскому согласию // -Москва: Свободная мысль. – 1994. – № 5. – с. 59-69.

9. Психология национальной нетерпимости: Хрестоматия / Сост. Ю.В. Чернявская. – Минск: Харвест, -1998. – 560 с.

10. Гасанов, З.Т. Воспитание культуры межнационального общения: Методология, теория и практика. Монография / З.Т. Гасанов. – Махачкала: ДПГУ, -1998.– 338 с.

11. Сковородкина, И.З. Национальное образование на Архангельском Севере (1917-1999 годы). Монография / И.З. Сковородкина. – Архангельск: Поморский университет им. М.В. Ломоносова, 2001. – 121 с.

**Р.А. Тагиева**

## Виды толерантности

## Резюме

В исследовании толерантность была классифицирована по видам. Было определено, что по признакам проявления межнациональную толерантность можно разделить на следующие три группы: визуальные отношения (оптимистическое настроение, психологическое спокойствие, проявление положительных эмоций – мимические реакции, использование коммуникативных жестов); отношения посредством речи (свобода выбора языка общения, использование литературного языка, отказ от жаргона); поведенческие отношения (равноправное общение, защита формальной и неформальной этики в любой социальной ситуации, защита любого слабого человека и защитные реакции, обострение чувства справедливости, помощь в сложных социальных ситуациях (социальная и личная чувствительность), в своей деятельности - использование методов консультирования, похвалы, убеждения, отрицания физического и психического давления на человека). Таким образом, толерантность (терпимость) как сложная особенность личности, имеющая в своей структуре терпение, послушание, смирение и выносливость представляет собой систему толерантного отношения не только к окружающему миру, но к самому себе. Она имеет свой субъект, адрес, предмет, особые критерии, показатели, а также различные формы и виды. Статья может быть полезна как исследователям, так и преподавателям-практикам.

**R.A. Tagiyeva**

## Types of the tolerance

## Summary

Scientific paper classified the types of tolerances. It was found, that interethnic tolerance can be divided into three groups according to the manifestations: visual communication (optimism, psychological comfort, manifestation of positive emotions - facial expressions, use of communicative gestures); communication through speech (freedom of choice of language of communication, use of literary language, rejection of slang); Behavioral communication (equal communication, protection of formal and informal ethics in any social situation, protection and defense reactions of any weak person, sharpening of the sense of justice, assistance in difficult social situations (social and personal sensitivity) , in their activities - the use of methods of counseling, praise, persuasion, denial of physical and mental pressure on the person). Thus, tolerance (tolerance) as a complex feature of a personality with structure, patience, obedience, humility and endurance in its structure is a system of tolerant attitudes not only to the world around us, but also to itself, its own subject, address, subject, special criteria, indicators, as well as various shapes and types. Article can be useful for both researchers and practical teachers.

**Redaksiyaya daxil olub:** 20.04.2021